2015-ci il «Kənd təsərrüfatı ili»dir

# Ölkəmizdə kənd təsərrüfatının inkişafına dövlət dəstəyi artır

2015-ci ilin yanvar-iyul aylarında Azərbaycanda 3 milyard 497 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,9 faiz artım deməkdir. Bu ilin ötən dövründə ölkədə 2 milyon 768,5 min ton dənli bitki (qarğıdalı istisna olmaqla) istehsal olunub. Hər hektardan orta hesabla 30,5 sentner dənli bitki yığılıb. Toplanılan qarğıdalı da nəzərə alınmaqla 2015-ci ilin yanvar iyul aylarında ölkə üzrə dənli bitkilər istehsalı 2 milyon 783,3 min ton təşkil edib. Hesabat dövründə təsərrüfatlarda 506,8 min ton kartof, 765,4 min ton tərəvəz, 356,4 min ton bostan məhsulu, 1797,7 min ton meyvə və giləmeyvə, 3201 ton üzüm, 363,6 ton yaşıl çay yarpağı və 1496 ton tütün yarpağı istehsal olunub. Bütövlükdə isə yanvar-iyul aylarında Azərbaycanda bitkiçilik məhsullarının istehsalı 15,8 faiz artıb. Hesabat dövrü üçün ölkənin əkin sahələrinin ümumi sahəsi 1 milyon 585 min hektar təşkil edib ki, bunun da 951,6 min hektarı dənli və paxlalı bitkilərin, 38,8 min hektarı texniki bitkilərin, 166 min hektarı kartof, tərəvəz və bostan məhsullarının, 428,6 min hektarı isə yem bitkilərinin payına düşüb.

Kənd təsərrüfatının ikinci mühüm sahəsi sayılan heyvandarlığın inkişaf etdirilməsi üçün də bir sıra təxirəsalınmaz işlər görülür. Bu ilin ötən dövrü ərzində sürünün cins tərkibinin yaxşılaşdırılması istiqamətində həyata keçirilmiş tədbirlər heyvanların məhsuldarlığının yüksəlməsinə, mal-qaranın baş sayının, eləcə də bu sahədə məhsul istehsalının artmasına səbəb olmuşdur. Belə ki, cari ilin yanvar-iyul aylarında ölkəmizdə 259,9 min ton diri çəkidə mal-qara və quş əti, 1 milyon 144,8 min ton süd, 898 milyon ədəd yumurta və 15,6 min ton yun istehsal edilmişdir. İlin ötən yeddi ayında ət istehsalı 1,8 faiz, süd istehsalı 3,7 faiz, yumurta istehsalı 1 faiz, yun istehsalı isə 1,8 faiz artmışdır. Bütövlükdə isə Azərbaycanda heyvandarlıq sahəsində məhsul istehsalı əvvəlki ilin müvafiq dövründəkindən 2,4 faiz çox olmuşdur.

Ölkəmizdə kənd təsərrüfatının mühüm sahəsi sayılan heyvandarlığın inkişaf etdirilməsinə diqqət və qayğı ilbəil artırılır. Elə dövlət başçısı İlham Əliyevin 2015-ci il avqust ayının 19-da imzaladığı "Heyvandarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi haqqında" Sərəncamı da bu məqsədə xidmət edir. Adıçəkilən sərəncam Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyi ilə bağlı tədbirlər çərçivəsində heyvan mənşəli məhsulların istehsalının daha da artırılması və cins iribuynuzlu damazlıq heyvanlara olan tələbatın ödənilməsi məqsədini daşıyır.

**A. CƏLALOĞLU.**

## Azərbaycanın MDB-yə daxil olmasından 22 il keçir

1993-cü ilin sentyabr ayının 3-də Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinin (MDB) tərkibinə daxil oldu. Həmin dövrdə bu məsələyə münasibət müxtəlif olsa da tarix göstərdi ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə baş tutmuş bu hadisə ən düzgün qərardır. Belə ki, Azərbaycan uzun müddət SSRİ-nin tərkibində olarkən təkcə Rusiya ilə deyil, digər postsovet respublikaları ilə də güclü iqtisadi və mədəni əlaqələrə malik olmuşdur. MDB-yə daxil olmamaq bu əlaqələrin birdən-birə qırılıb atılması demət olardı. Qloballaşan dünyamızda isə beynəlxalq aləmlə bütün əlaqələri kəsmiş bir dövlətin mövcudluğu mümkün deyil.

Bu gün Azərbaycan MDB-yə daxil olsa da öz suveren, müstəqil siyasətini yeridir. Bu balanslaşdırılmış siyasət ölkəmizə ancaq uğur gətirir.

# Üzümçülük və şərabçılıqda itirilmiş şöhrət bərpa edilir

Qəbələ üzüm yetişdirilməsi ilə məşğul olan qədim diyarlardan biridir. Tarixi qaynaqlara görə XVIII-XX əsrdə rayonumuzun bir çox yaşayış məntəqələrində geniş üzüm bağları mövcud idi. Bu bağlarda yerli sortlardan- «Kişmişi», «Çil», «Müşket» el arasında «Keçi məməsi» adlandırılan, Göyçay üzüm sortları yetişdirilirdi. Üzümdən çox növlü məhsullar hazırlanırdı. Süfrə üzümü, şərab, doşab(bəkməz), abqora, sirkə, kişmiş və s. məhsulların hazırlanması onun qiymətli və sərfəli olmasından xəbər verir. Üzümçülük son 5-6 ildə də rayonumuzda aqrar-sənaye kompleksinin ən gəlirli sahələrindən birinə çevrilib.

Vaxtilə Qəbələdə kənd təsərrüfatından əldə edilən ümumi mənfəətin 20-25 faizi üzümçülüyün payına düşürdü. Keçən əsrin 80-ci illərində üzümçülük dövlət büdcəsinin formalaşmasında mühüm yer tuturdu. Qaş ərazisində yaradılan üzümçülük birliyindən, Quşlar, Məlikli kəndlərinin ərazilərində salınan üzüm bağlarından minlərlə ton üzüm tədarük edilirdi. Üzümçülüyün ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyətə malik olduğunu yüksək qiymətləndirən Heydər Əliyev 1970-1980-ci illərdə bu sahənin müxtəlif bölgələrdə, o cümlədən Qəbələdə də sürətlə inkişafına xüsusi diqqət və qayğı göstərdi. Ulu öndər Heydər Əliyevin gərgin əməyi nəticəsində ölkəmizdə üzümlüklərin ümumi sahəsi 1984-cü ildə 280 min hektara çatdırılmış, həmin ildə ilk dəfə olaraq 2,1 milyon ton Azərbaycan üzümü istehsal edilmişdir.

Həmin dövrdə şərabçılıq sənayesinin inkişaf etdirilməsinə, emal olunan şərab məhsullarının keyfiyyətinin yüksəldilməsinə və çeşidinin genişləndirilməsinə dövlət tərəfindən böyük diqqət yetirilirdi. Ölkəmizdə istehsal olunan şərab və konyaklar bir sıra xarici ölkələrə ixrac olunurdu. Burada istehsal olunan şərablar yüksək keyfiyyət göstəricisinə görə beynəlxalq sərgilərdə yüksək yerə layiq görülürdü. Qeyd olunan illərdə emal müəssisələrinin maddi texniki bazası möhkəmləndirilmişdi, güclü kadr potensialı yaradılmışdır.

Lakin 90-cı illərin əvvəllərində ölkədə hökm sürən xaos, hərc-mərclik bu sahənin inkişafına öz mənfi təsirini göstərdi. Kəndlilərin illər boyu ağır və gərgin zəhməti sayəsində yetişdirilən üzüm bağları dağıdıldı, nəticədə bir sıra şərabçılıq müəssisələrinin fəaliyyətinin dayandırıldı. Uduzan zəhmətkeş kəndlilər və emal müəssisələrində işləyən mütəxəssis və fəhlələr oldu.



1993-cü ildə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra üzümçülük-şərabçılıq sahəsinə diqqət yenidən artdı. Ulu öndərin məqsədyönlü siyasəti sayəsində ölkədə üzümçülük tədricən bərpa edilməyə başladı. Azərbaycanın üzümçülüklə məşğul olan zonalarında və bir sıra başqa bölgələrdə həm yerli, həm də əcnəbi ölkələrdən gətirilən üzüm sortlarından ibarət tənəklərdən yeni üzüm bağları salındı. Ümummilli lider Heydər Əliyevin üzümçülüyün və şərabçılığın inkişafı ilə əlaqədar 2002-ci ildə imzaladığı "Üzümçülük və şərabçılıq haqqında"kı fərmanı kəndlilərin üzünə yeni üfüqlər açdı. Sənədin qüvvəyə minməsindən sonra çoxsaylı özəl üzümçülük təsərrüfatları formalaşdı, yeni üzümlüklər salındı.

Bu mühüm sənədi böyük ruh yüksəkliyi ilə qarşılayanlar da oldu. Həmyerlimiz Arif Rəhimov Qəbələdə üzümçülük və şərabçılıq sahəsinin keçmiş şöhrətini bərpa və inkişaf etdirmək üçün ilk təşəbbüsə qoşulanlardan biri oldu. Onun əməyi nəticəsində Qəbələ rayonunda nadir iqlim şəraitinə malik Savalan vadisində geniş üzüm bağları salınmışdır. Hazırda burada xeyli sayda mütəxəssis və fəhlələr işlədiyinə görə bura "ASPİ AQRO" Məhdud Məsuliyyətli Cəmiyyəti adlanır.

2007-ci ildən sonra fəaliyyətə başlayan bu cəmiyyət indiyədək həmin ərazidə 298 hektar sahədə üzüm bağları salmışdı. Burada əkilib-becərilən üzümçülük tingləri dünyanın ən böyük şirkətləri olan İtaliya və Fransadan gətirilən ən məhsuldar "Kaverne", "Savinimo", "Merlo", "Pino Nuar süfrə", "Sultanina", "Kardinal", "Matilya" şərab sortlarıdır. Bu sort tinglər yüksək bar vermə qabiliyyətinə malikdir, eyni zamanda həm süfrə, həm də şərab emalı sahəsində adı dünyada məşhurdur. Hal-hazırda şirkətin 298 hektar növ texniki və 45 hektar süfrə üzüm bağları vardır. Şirkətə məxsus üzüm bağlarında 21 texniki, 14 növ süfrə üzümü yetişdirilir.

2014-cü il kənd təsərrüfatı üçün hava əlverişsiz keçsə də, üzüm bağlarından həm emal, həm də süfrə üçün 1000 tondan çox üzüm yığılıb. Bundan 800 tondan çoxu zavoda emal üçün göndərilmişdir. Söz zavoddan düşmüşkən qeyd etməliyəm ki, Qafqazda analoqu olmayan bu şərab emalı zavodunun tikintisinə 2011-ci ildə başlanmış və açılışında Prezident İlham Əliyev iştirak etmişdi.

**(Ardı 6-cı səhifədə).**